YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFININ İQTİSADİ İNKİŞAFA TƏSİR ASPEKTLƏRİ

Məmmədova İlhamə Raquf qızı
İlhama.mammadova@mdu.edu.az
Mingəçevir Dövlət Universiteti

Yüngül sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyi istehsal edilən məhsulların iqtisadi artımı və müəssisələrin rəqabətə davamlığının yüksəldilməsi ilə bilavasitə bağlıdır. Bu baxımdan yeni texnologiyaların, məhsul və xidmət növlərinin yaradılmasına xidmət edən strategiya müasir şəraitdə iqtisadi inkişafın əsas təməl prinsiplərindəndir. Araşdırmalar göstərir ki, son illər yüngül sənaye müəssisələrinin inkişafına aşağıdakı problemlər mənfi təsir etmişdir: yeni texnika və texnologiyaların əldə edilməsi ilə bağlı çatışmazlıqlar, müəssisələrin bu istiqamətdəki fəaliyyətinin stimullaşdırması üçün zəruri inkişaf proqramlarının kifayət səviyyədə olmaması; yeni texnika və texnologiyaların yaradılması istiqamətində elmi tədqiqatların aparılmasındakı və istehsalata tətbiqindəki problemlər; müəssisələrin xarici bazarlardakı mövqeyinin zəifliyi, istehsal olunan məhsulların idxal məhsulları ilə müqayisədə aşağı rəqabət qabiliyyətinə malik olması və s.

Texnoloji innovasiyalara çəkilən xərclərin strukturunun araşdırılması göstərir ki, bütün xərclər məhsul innovasiyalarına istiqamətlənmişdir. Proses innovasiyalarına vəsait qoyuluşu qeydə alınmamışdır. Toxuculuq sənayesinin innovasiyaların növlərinə görə texnoloji innovasiyalara çəkilən xərclərin strukturunda xüsusi çəkisi isə 5,6% təşkil etmişdir. Bu göstərici ilə yanaşı sənayedə əsas kapitala yönəldilmiş investisiyalardan istifadə edilməsinin strukturu da diqqəti cəlb edir. Belə ki, 2012-2016-cı illərdə sənayedə əsas kapitala yönəldilmiş investisiyalardan istifadə edilməsinin strukturunda emal sənayesinin xüsusi çəkisi 8-15,8% arasında dəyişdiyi halda, yüngül sənaye sahələri üzrə bu göstərici 1%-ə belə çatmır.

Araşdırmalar göstərir ki, innovasiya fəaliyyətinin inkişafı üçün mövcud və perspektiv innovasiya potensialını qiymətləndirmək vacib məsələlərdən biridir. Xüsusilə, innovasiya potensialının təyinatı üzrə sistemləşdirmək məsələsinə diqqət artırılmalıdır. İnnovasiya potensialı kimi xammal-material resursları, texniki-texnoloji vasitələrin inkişafı, elmi-texniki yönümlü tədqiqatların aparılma səviyyəsi və onların nəticəsi, maddi-texniki bazanın durumu, yeni növ məhsul istehsalını təmin edəcək istehsal sahələrinin imkanları, maliyyə təminatı, təşkilati-idarəetmə

sisteminin vəziyyəti və s. nəzərə alınmalıdır.

Araşdırmalar göstərir ki, yüngül sənaye məhsulları istehsalçılarının maliyyə vəziyyətinin pisləşməsi investisiya imkanlarının məhdudlaşması ilə əlaqədardır. Müasir şəraitdə investorların investisiyaların qoyuluşu ilə bağlı maraqlarının stimullaşdırılması dövlətin investisiya siyasətində əsas istiqamətlərdən hesab edilə bilər. İnvestisiya aktivliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər sahələrin inkişafı ilə bağlı cəlbedici investisiya layihələrinin hazırlanmasını da zəruri edir. Bu baxımdan aşağıdakı şərtlərin reallaşdırılmasını zəruri hesab etmək olar: istehsalın artımı, o cümlədən istehsal potensialının mühüm tərkib hissəsi kimi rəqabətə davamlı istehsalın formalaşdırılması; yüngül sənaye seferasına investisiya qoyuluşlarının stimullaşdırılması məqsədi ilə bu istiqamətdə nəzərdə tutulan tədbirlərin təşviqi; yerli və xarici investisiyaların stimullaşdırılması məqsədilə risklərin sığortalanması tədbirlərinin müəyyən edilməsi, eləcə də zəruri investisiya mühitin formalaşdırılması və s.

İnkişaf etmiş ölkələrin təcrübəsində investisiya siyasətinin işlənib hazırlanması uzun müddətli dövrü əhatə edir ki, bu zaman investisiya aktivliyinin yüksəldilməsi ilə bağlı konkret dövlət tədbirlərinin həyata keçirilməsi ön plana çəkilir. Bundan əlavə, investisiya layihələrinə əsas tələblər onların proseduru və investisiyaların priaritet istiqamətlərinin müəyyənləşdirilməsi əsas məqamlardan biridir.

Araşdırmalar göstərir ki, istehsal sektoruna dövlət yardımları, əslində qeyri-büdcə investisiyalarının cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasını da özündə əks etdirir. Bu zaman dövlət tərəfindən dotasiyaların və transferlərin ödənilməsi də mühüm rola malikdir. Qeyd etmək lazımdır ki, yüngül sənaye kompleksində təsərrüfat subyektlərinin xüsusilə, kredit qabiliyyətinin yüksəldilməsi investisiyalaşmanın mühüm məsələlərindən biridir.İnvestisiya resurslarının cəlb edilməsinin ən mühüm istiqamətlərindən biri də sahələrin maliyyə vəziyyətinin sağlamlaşdırılması ilə bağlıdır. Maliyyə sağlamlaşması investisiya cəlbediciliyinin yüksəldilməsində, istehsal prosesinin modernləşdirilməsində əhəmiyyətli rol oynayır.

Dünya iqtisadiyyatının müasir inkişaf səviyyəsi modernləşdirmə ilə xarakterizə olunduğundan yüngül sənayenin inkişaf etdirilməsi baxımından restrukturizasiya yönəlik investisiya qoyuluşlarının qanunvericilik səviyyəsində stimullaşdırılması vacib məsələlərdəndir. Bu zaman sənaye sahələrinə innovasiyaların tətbiqi xüsusi önəm kəsb edir. İnnovasiya fəaliyyətinin maliyyələşdirilməsində əsas amillər olan çevik əmək və maliyyə bazarının yaradılmasına da xüsusi diqqət yetirilməlidir.

Belə yanaşma bu sahədə həm səmərəli maliyyələşmə, həm də onun məqsədyönlü istifadə istiqamətlərini yaratmaqla, yeni elmtutumlu və rəqabətyönümlü məhsul istehsalının, satışının zəncirvari həlqəsini tamamlamış olar. Yüngül sənayenin inkiafının sürətləndirilməsi üzrə hazırlanan strategiyalar da məhz innovasiyaların tətbiqini özündə əks etdirən aşağıdakı məsələlərin həllinə xidmət edir: əhalinin tələbatının ödənilməsi, rəqabətədavamlı və ixracyönümlü istehsalın inkişafı.

Qeyd edilənlər göstərir ki, bütövlükdə müasir inkişafın əsas səbəbi innovasiyalı texniki və texnoloji yeniliklər, yəni elmi-texniki tərəqqi hesab edilir. Texnoloji baxımdan inkişaf etmiş dövlətlərin iqtisadiyyatında baş verən proseslər dövrü proseslərin elmi-texniki tərəqqi və innovasiya fəaliyyəti ilə qarşılıqlı əlaqəli olduğunu təsdiq edir.

Texniki, texnoloji yeniliklər və innovasiyalar arasında mövcud olan bu cür dayanıqlı və qanunauyğun əlaqələrin aşkar edilməsi yüngül sənayenin inkişafında mənfi amillərin təsirinin qarşısının alınmasının və ya zəiflədilməsinin səmərəli mexanizmlərinin işlənib hazırlanması üçün zəruri əsaslar yaradır.

Ümumiyyətlə, innovasiya prosesi texniki, istehsal, idarəetmə sisteminin qarşılıqlı təkmilləşdirilməsini təmin etməklə, yeni məhsul istehsalına zəmin yaradır, istehsal xərclərinin aşağı düşməsini təmin edir, istehsal olunan məhsulların, həmçinin ixrac yönümlü məhsulların rəqabət qabiliyyətini yüksəltməyə imkan verir.

Qeyd olunan tədbirlər içərisində yeni texnologiyaların istehsalata cəlb edilməsi və innovasiyaların təşviqi xüsusi əhəmiyyətə malikdir. Araşdırmalar göstərir ki, yüngül sənayedə innovasiya fəaliyyəti bir sıra amillərin təsiri ilə şərtlənir.

Onlara aşağıdakıları aid etmək olar: yüngül sənaye müəssisələrinin malik olduğu texniki vasitə, qurğu və avadanlığın müəyyən hissəsinin aşağı texniki səviyyəsi; yüngül sənaye sahələrinə qoyulan investisiyaların kifayət qədər olmaması; innovasiya fəaliyyətinin aşağı səviyyəsi; müəssisələrin mövcud istehsal potensialından tam şəkildə istifadə olumaması və s.

İstifadə edilmiş ədəbiyyatın siyahısı.

1. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı-2011.

2. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti. Dərs vəsaiti. I-II hissə. Bakı-2017.

3. Tağıyev A.H., Səfərov Q.Ə. İnnovasiya layihələrinin menecmenti. Bakı-2013.